**Nadirov Elçin Zahid oğlu,**
"ASNAF S.Ş." MMC, baş direktorun hüquq məsələləri üzrə müşaviri
E-mail: hes2008@mail.ru

**UOT 342.4**
**DOI: https://doi.org/10.30546/2218-9130.009.2026.142**

# KONSTİTUSİYA QANUNU: ANLAYIŞI, YARANMA ZƏRURƏTİ VƏ İNKİŞAF TARİXİ

***Açar sözlər:*** *konstitusiya qanunu, normativ hüquqi aktlar, maddə, qanunvericilik sistemi, dövlət.*

***Ключевые слова:*** *конституционный закон, нормативные правовые акты, статья, законодательная система, государство.*

***Keywords:*** *constitutional statute, normative legal acts, article, legislative system, state.*

Konstitusiya qanunu – konstitusiyanın özündə qəbul edilməsi nəzərdə tutulan və konstitusion əhəmiyyətli ictimai münasibətlərin tənzimlənməsinə yönələn xüsusi növ normativ hüquqi aktdır. Bu aktlar, bir qayda olaraq, dövlət quruluşunun, dövlət hakimiyyəti institutlarının və digər fundamental konstitusion-hüquqi münasibətlərin həyata keçirilməsinin əsas məsələlərini konkretləşdirir və inkişaf etdirir.

Azərbaycan Respublikasının qanunvericilik sistemində normativ hüquqi aktların növləri və onların hüquqi qüvvəsi, ilk növbədə, Konstitusiyanın 148-ci, 149-cu və 151-ci maddələri ilə müəyyən edilir. Əsas Qanunun 149-cu maddəsinə əsasən normativ hüquqi aktlar hüquqa və ədalətə əsaslanmalı, onların iyerarxik münasibətləri isə hüquqi qüvvə baxımından müəyyən ardıcıllıq əsasında qurulmalıdır. Konstitusiyanın 151-ci maddəsi isə normativ hüquqi aktlar arasında ziddiyyət yarandığı hallarda tətbiq olunmalı prioritet qaydanı müəyyən edir və Konstitusiyanın, referendumla qəbul edilmiş aktların və qanunların digər normativ hüquqi aktlara münasibətdə üstünlüyünü təsbit edir [6]. Bu baxımdan, konstitusiya qanununun hüquq sistemindəki yeri ayrıca dəqiqləşdirilməlidir. Azərbaycan Respublikasının Konstitusiyasının 148-ci maddəsində normativ hüquqi aktların iyerarxiyasında "konstitusiya qanunu" ayrıca akt növü kimi göstərilmir. Buna görə də konstitusiya qanunlarının adi qanunlardan üstün hüquqi qüvvəyə malik olması barədə ümumi müddəanın Azərbaycan hüquq sistemində birbaşa tətbiqi geniş araşdırılmalı olan bir məsələdir. Konstitusiya qanununun hüquqi qüvvəsi və hüquq sistemindəki yeri, ilk növbədə, onun Konstitusiyanın hansı norması əsasında və hansı prosedurla qəbul edilməsindən, habelə həmin aktın Konstitusiya və digər normativ hüquqi aktlarla qarşılıqlı münasibətindən irəli gəlir.

Deməli, Azərbaycan Respublikası Konstitusiyasının ayrılmaz hissəsi sayılan konstitusiya qanununu ondan sonra gələn adi qanunlardan avtomatik olaraq üstün hüquqi qüvvəyə malik olan ayrıca iyerarxik pillə kimi Konstitusiyanın müəyyən etdiyi hallarda onun müddəalarını konkretləşdirən və konstitusion tənzimləmənin həyata keçirilməsinə xidmət edən xüsusi norma-

tiv hüquqi akt forması kimi xarakterizə etmək daha əsaslıdır. Başqa cür ifadə etsək, konstitusiya qanununa bu cür tərif vermək olar: Azərbaycan Respublikasının hüquq sistemində konstitusiya qanunu dedikdə, Konstitusiyanın müəyyən etdiyi hallarda onun müddəalarının konkretləşdirilməsi və həyata keçirilməsi məqsədilə qəbul edilən, konstitusion əhəmiyyətli ictimai münasibətləri tənzimləyən xüsusi normativ hüquqi akt başa düşülür.

Akademik M.F.Məlikovanın fikrincə, Konstitusiya qanunlarının aşağıdakı özünəməxsus cəhətləri vardır:

1) Azərbaycan Respublikasının Konstitusiyasına əlavələr Konstitusiya qanunu

şəklində qəbul edilir;

2) Azərbaycan Respublikası Konstitusiyasının ayrılmaz tərkib hissəsidir;

3) Azərbaycan Respublikası Konstitusiyasının əsas mətnlərinə zidd olmamalıdır;

4) Azərbaycan Respublikasının Konstitusiyasına əlavələrin təklif edilməsi hüququna Azərbaycan Respublikası Konstitusiyasının Azərbaycan Respublikasının Prezidenti və ya Azərbaycan Respublikası Milli Məclisinin 63 deputatı malikdirlər;

5) Azərbaycan Respublikası Konstitusiyasının "Ümumü müddəalar" adlanan birinci bölməsində əks olunmuş müddəalarla əlaqədar əlavələr təklif edilə bilməz;

6) digər qanunlardan özünün xüsusi qəbul edilməsi qaydası ilə fərqlənir [9, s. 169-170].

Konstitusiya qanununun hüquqi mahiyyətinin müəyyənləşdirilməsi onun digər normativ hüquqi aktlardan fərqləndirici xüsusiyyətlərinin sistemli şəkildə təhlilini tələb edir. Bu kontekstdə, konstitusiya qanununu səciyyələndirən əsas meyarlar onun konstitusion-hüquqi əsası, tənzimləmə predmeti və qəbul edilmə xüsusiyyətləri ilə bağlıdır. İlk növbədə, konstitusiya qanununun konstitusion-hüquqi əsası onun qəbul edilməsinin Konstitusiyanın müvafiq müddəasından irəli gəlməsini şərtləndirir. Belə aktlar konstitusion tənzimləmənin konkret istiqamətlərini inkişaf etdirmək və ya Konstitusiyada nəzərdə tutulan hüquqi mexanizmləri konkretləşdirmək məqsədi daşıyır. Bununla yanaşı, ayrı-ayrı hüquq sistemlərində konstitusiya qanununun konstitusion əsası müxtəlif formalarda müəyyən edilə bilər. Azərbaycan Respublikasının hüquq sistemində bu məsələ xüsusi diqqət tələb edir. Belə ki, Konstitusiyanın 156-cı maddəsi Konstitusiyaya əlavələrin qəbul edilməsi qaydasını müəyyən edir və bu normanın konstitusiya qanunları ilə əlaqəsi onların hüquqi mahiyyəti nəzərə alınmaqla qiymətləndirilməlidir. Bu səbəbdən 156-cı maddənin hər bir konstitusiya qanununun bilavasitə hüquqi əsası kimi təqdim edilməsi metodoloji baxımdan geniş yanaşılmalı məsələdir.

Konstitusiya qanununun digər mühüm fərqləndirici əlaməti onun tənzimləmə predmetidir. Bu aktlar, bir qayda olaraq, dövlətin konstitusiya quruluşunun əsasları, dövlət hakimiyyətinin təşkili və həyata keçirilməsi, fundamental dövlət institutlarının hüquqi statusu, insan və vətəndaşın əsas hüquq və azadlıqlarının təmin edilməsi, habelə konstitusion əhəmiyyət daşıyan digər münasibətlərin tənzimlənməsi ilə bağlı məsələləri əhatə edir. Bununla belə, konstitusiya qanununun predmetini yalnız dövlət hakimiyyəti orqanlarının fəaliyyəti ilə məhdudlaşdırmaq düzgün olmazdı. Onun tənzimləmə dairəsi konkret dövlətin Konstitusiyasının quruluşundan və konstitusion-hüquqi tənzimləmənin xüsusiyyətlərindən asılı olaraq daha geniş ola bilər. Bu mənada konstitusiya qanunu Konstitusiyanın fundamental müddəalarını təkrarlamaqdan daha çox, onların normativ məzmununu inkişaf etdirən və praktiki həyata keçirilməsini təmin edən hüquqi vasitə kimi çıxış edir.

Konstitusiya qanununu səciyyələndirən digər mühüm meyar onun qəbul edilmə qaydasıdır. Konstitusiya qanununun xüsusi hüquqi

təbiəti onun qəbul edilməsi üçün müəyyən edilmiş prosedurun xüsusiyyətlərində ifadə oluna bilər. Müxtəlif dövlətlərin hüquq sistemlərində belə qanunların qəbul edilməsi adi qanunların qəbulundan fərqli qaydada həyata keçirilir; məsələn, daha yüksək səs çoxluğu, əlavə parlament prosedurları və ya digər xüsusi tələblər nəzərdə tutula bilər. Buna görə konstitusiya qanunlarının bütün hüquq sistemlərində adi qanunlarla eyni prosedur əsasında qəbul edildiyini universal hüquqi qayda kimi qəbul etmək mümkün deyildir. Azərbaycan Respublikasında isə konkret aktın konstitusiya qanunu kimi hüquqi statusunun müəyyənləşdirilməsi zamanı yalnız onun adına deyil, həmin aktın qəbul edilməsinin konstitusion və qanunvericilik əsaslarına, qəbul edilmə proseduruna və hüquqi nəticələrinə kompleks şəkildə qiymət verilməlidir.

Beləliklə, konstitusiya qanununun fərqləndirici xüsusiyyətləri yalnız onun adında "Konstitusiya Qanunu" ifadəsinin işlədilməsi ilə müəyyən edilə bilməz. Onun hüquqi mahiyyəti, ilk növbədə, Konstitusiya ilə əlaqəsi, tənzimlədiyi münasibətlərin konstitusion əhəmiyyəti, qəbul edilməsinin xüsusi hüquqi əsası və proseduru, habelə hüquq sistemində tutduğu yer əsasında müəyyənləşdirilməlidir. Bu meyarların məcmusu konstitusiya qanununu həm Konstitusiyanın özündən, həm də adi qanunlardan fərqləndirən xüsusi normativ hüquqi kateqoriya kimi xarakterizə etməyə imkan verir.

Azərbaycan Respublikasının qanunvericilik təcrübəsində konstitusiya qanunu xüsusi hüquqi statusa malik normativ hüquqi akt kimi bir sıra mühüm konstitusion məsələlərin tənzimlənməsində istifadə olunur. Bu baxımdan, "Normativ hüquqi aktlar haqqında" Azərbaycan Respublikasının 21 dekabr 2010-cu il tarixli Konstitusiya Qanunu [10], "Azərbaycan Respublikasının İnsan hüquqları üzrə müvəkkili (ombudsman) haqqında" Azərbaycan Respublikasının 28 dekabr 2001-ci il tarixli Konstitusiya Qanunu [4], "Azərbaycan Respublikasında insan hüquq və azadlıqlarının həyata keçirilməsinin tənzimlənməsi haqqında" Azərbaycan Respublikasının 24 dekabr 2002-ci il tarixli Konstitusiya Qanunu [1], "Azərbaycan Respublikasının Milli Məclisinin Azərbaycan Respublikasının Nazirlər Kabinetinə etimad məsələsinin həll edilməsi hüququnun əlavə təminatları haqqında" Azərbaycan Respublikasının Konstitusiya Qanunu [7], "Beynəlxalq cinayətlərə görə məsuliyyət müəyyən edən qanunun qüvvəsinin geriyə şamil olunması haqqında" Azərbaycan Respublikasının 12 may 2006-cı il tarixli Konstitusiya Qanunu [8] və "Azərbaycan Respublikasının keçmiş Prezidentinin və onun ailə üzvlərinin təminatı haqqında" 12 iyun 2011-ci il tarixli Konstitusiya Qanunu [5] bu kateqoriyaya aid nümunələr kimi göstərilə bilər.

Göstərilən nümunələr konstitusiya qanunlarının tənzimləmə predmetinin vahid xarakter daşımadığını göstərir. Onların bir qismi insan hüquq və azadlıqlarının həyata keçirilməsi və müdafiəsi, digərləri dövlət hakimiyyəti institutlarının fəaliyyəti, parlament-hökumət münasibətləri, normayaratma prosesi və dövlətin digər fundamental konstitusion məsələləri ilə bağlı münasibətləri tənzimləyir. Məsələn, "Normativ hüquqi aktlar haqqında" Konstitusiya Qanunu normativ hüquqi aktların hazırlanması, qəbul edilməsi, rəsmiləşdirilməsi, dərc olunması, qüvvədə olması, şərh edilməsi və sistemləşdirilməsi qaydalarını müəyyən edir. "Azərbaycan Respublikasının İnsan hüquqları üzrə müvəkkili (ombudsman) haqqında" Konstitusiya Qanunu isə Ombudsman institutunun hüquqi statusunu, fəaliyyətinin əsaslarını və səlahiyyətlərini müəyyən edən xüsusi normativ bazanı formalaşdırır.

Deməli, Azərbaycan Respublikasının qanunvericilik təcrübəsi göstərir ki, konstitusiya qanunu yalnız Konstitusiyaya əlavələrin edilməsi ilə bağlı akt kimi deyil, həm də Konstitusiyada

təsbit olunmuş fundamental hüquq institutlarının və konstitusion münasibətlərin normativ tənzimlənməsini təmin edən xüsusi akt forması kimi çıxış edir. Bununla yanaşı, ayrı-ayrı konstitusiya qanunlarının qəbul edilməsinin hüquqi əsası və onların hüquqi qüvvəsi konkret Konstitusiya normaları və müvafiq qanunvericilik çərçivəsində ayrıca müəyyən edilməlidir.

Müasir elmi ədəbiyyatda bu institutun vahid universal modelinin olmadığı xüsusilə diqqəti cəlb edir. Azərbaycan Respublikasında konstitusiya qanunları xüsusi qəbul edilmə proseduruna malik və Konstitusiyanın ayrılmaz hissəsi ilə əlaqələndirilən normativ aktlar kimi çıxış etdiyi halda, Rusiya Federasiyasında federal konstitusiya qanunları Konstitusiyanın inkişaf etdirilməsi və onun müəyyən etdiyi məsələlərin normativ konkretləşdirilməsi üçün nəzərdə tutulan xüsusi qanun kateqoriyasıdır [13, s. 130]. Böyük Britaniyada isə yazılı və vahid konstitusiya aktının olmaması şəraitində "constitutional statutes" anlayışı əsasən məhkəmə doktrinası və konstitusiya təcrübəsi əsasında formalaşmışdır [11, s. 75].

Bu baxımdan konstitusiya qanununun meydana gəlməsi yalnız qanunvericilik texnikasının nəticəsi kimi deyil, konstitusiyanın normativ tənzimləmə imkanları ilə ictimai münasibətlərin dinamik inkişafı arasında yaranan hüquqi ehtiyacın nəticəsi kimi qiymətləndirilməlidir.

Konstitusiya qanununun yaranmasının əsas səbəblərindən biri konstitusion normaların ümumi və fundamental xarakteri ilə onların praktiki həyata keçirilməsi üçün zəruri olan konkret hüquqi tənzimləmə arasında mövcud olan məsafədir. Konstitusiya, bir qayda olaraq, dövlət hakimiyyətinin əsaslarını, fundamental hüquq və azadlıqları və dövlət quruluşunun başlıca prinsiplərini müəyyən edir. Lakin bu normaların praktik həyata keçirilməsi çox vaxt daha detallı normativ tənzimləməni tələb edir. Bu kontekstdə konstitusiya qanunu konstitusion normaların inkişaf etdirilməsi və konkretləşdirilməsi üçün xüsusi hüquqi vasitə funksiyasını yerinə yetirə bilər. Rusiya təcrübəsini araşdıran S. Popova və A. Yanik göstərirlər ki, 1993-cü il Konstitusiyasının qəbulundan sonra federal qanunvericiliyin inkişafı böyük ölçüdə Konstitusiyanın müəyyən etdiyi hüquqi çərçivənin qanunvericilik vasitəsilə konkretləşdirilməsi ilə müşayiət olunmuşdur. Müəlliflərin 1994–2018-ci illəri əhatə edən statistik araşdırması konstitusion müddəaların federal qanunvericiliyə transformasiyasının dinamik xarakter daşıdığını göstərir [12, s. 129-131].

Bu yanaşma konstitusiya ilə qanunvericilik arasındakı münasibətlərin yalnız hüquqi iyerarxiya prinsipi əsasında formalaşmadığını, həmçinin konstitusion müddəaların qanunvericilik vasitəsilə konkretləşdirilməsi və həyata keçirilməsi ilə bağlı funksional əlaqəni də əhatə etdiyini göstərir.

Konstitusiya qanunu bu iki səviyyə arasında əlaqələndirici normativ mexanizm kimi çıxış edərək konstitusion müddəaların daha konkret hüquqi qaydalara çevrilməsinə xidmət edə bilər. Başqa sözlə, konstitusiyanın ümumi müddəaları ilə onların praktiki tətbiqi arasında hüquqi vasitəçilik edən normativ mexanizmlərdən biri konstitusiya qanunu ola bilər. Bununla belə, konstitusiya qanununun bu funksiyası onun hər hansı konstitusion müddəanı sərbəst şəkildə dəyişdirmək və ya konstitusiyanın hüquqi məzmununu yenidən müəyyən etmək səlahiyyətinə malik olması anlamına gəlmir. Əksinə, belə qanunların normativ məzmunu və hüquqi qüvvəsi birbaşa konstitusiyanın özündən irəli gələn hüdudlarla müəyyən edilir.

Konstitusiya qanununun yaranmasını şərtləndirən digər mühüm amil konstitusion tənzimləmənin sabitliyi ilə hüquq sisteminin dəyişən ictimai münasibətlərə uyğunlaşdırılması zərurəti arasındakı balansın təmin edilməsidir. Konstitusiyaya tez-tez dəyişikliklərin edilməsi onun sabitliyi və ali hüquqi qüvvəsi baxımından arzuolunmaz nəticələr yarada bilər. Eyni

zamanda, konstitusiyada təsbit edilmiş müəyyən institutların inkişaf edən ictimai münasibətlərə uyğunlaşdırılması zərurəti meydana çıxa bilər. Belə hallarda konstitusiya qanunu, hüquq sistemindən asılı olaraq, konstitusion müddəaların dəyişdirilməsinə ehtiyac yaratmadan və ya konstitusiyaya dəyişikliklərin edilməsi proseduruna müraciətin dairəsini məhdudlaşdırmaqla həmin münasibətlərin normativ tənzimlənməsinə imkan verən hüquqi mexanizm kimi çıxış edə bilər. Lakin burada konstitusiya qanununun funksional imkanlarının həddi xüsusi əhəmiyyət kəsb edir. Əgər konstitusiya qanunu konstitusiyanın müddəalarını yalnız konkretləşdirir, inkişaf etdirir və onların həyata keçirilməsi mexanizmlərini müəyyənləşdirirsə, bu halda onun funksiyası konstitusiyanın normativ məzmununun açılması və tətbiqinin təmin edilməsi ilə məhdudlaşır. Əksinə, konstitusiya qanununun konstitusiyanın özündə nəzərdə tutulmayan yeni konstitusion normalar yaratması və ya konstitusiya müddəalarının məzmununu dəyişdirməsi onun konstitusion iyerarxiyadakı yerinin yenidən qiymətləndirilməsini tələb edir. Buna görə də konstitusiya qanununun hüquqi təbiətinin müəyyənləşdirilməsində yalnız onun qəbul edilmə proseduru deyil, həm də konstitusiya ilə məzmun və funksional əlaqəsi nəzərə alınmalıdır.

Bu baxımdan müxtəlif dövlətlərin təcrübəsi göstərir ki, "konstitusiya qanunu" anlayışı vahid və universal hüquqi məzmun daşımır. Ayrı-ayrı hüquq sistemlərində bu termin konstitusiyanın tərkib hissəsi hesab edilən aktları, konstitusiyanın müəyyən müddəalarını konkretləşdirən xüsusi qanunları, xüsusi qəbul edilmə proseduruna malik qanunları və ya hüquqi qüvvəsinə görə adi qanunlardan fərqləndirilən normativ aktları ifadə edə bilər. Deməli, konstitusiya qanununun hüquqi təbiətini yalnız onun adına əsasən müəyyənləşdirmək mümkün deyildir. Bunun üçün ilk növbədə həmin dövlətin Konstitusiyasında bu aktın nəzərdə tutulub-tutulmadığı, onun hansı qaydada qəbul edildiyi, hüquqi qüvvəsinin necə müəyyənləşdirildiyi və digər qanunlarla münasibətinin hansı prinsiplərə əsaslandığı araşdırılmalıdır.

Beləliklə, konstitusiya qanununun meydana gəlməsini izah edən yanaşmalar üç əsas istiqamətdə ümumiləşdirilə bilər. Birincisi, konstitusion normaların ümumi və fundamental xarakterindən irəli gələn konkretləşdirmə ehtiyacı; ikincisi, konstitusion sabitliklə ictimai münasibətlərin inkişafı arasında balansın təmin edilməsi zərurəti; üçüncüsü isə konstitusiya ilə cari qanunvericilik arasında normativ əlaqənin daha dəqiq hüquqi mexanizmlərlə təmin olunmasıdır. Lakin bu funksiyaların həyata keçirilməsi konstitusiya qanununun hər bir hüquq sistemində eyni hüquqi qüvvəyə və eyni normativ funksiyaya malik olması anlamına gəlmir.

Bildirməyi zəruri hesab edirik ki, "Konstitusiya qanunu" kateqoriyasının Azərbaycan Respublikasının qanunvericilik təcrübəsində ilk dəfə normativ hüquqi aktın adında işlədilməsi 25 may 1991-ci ilə təsadüf edir. Həmin tarixdə 23 maddədən ibarət "Azərbaycan Respublikasının iqtisadi müstəqilliyinin əsasları haqqında" Azərbaycan Respublikasının Konstitusiya Qanunu qəbul edilmişdir [3]. Bunun ardınca, 18 oktyabr 1991-ci ildə 32 maddədən ibarət "Azərbaycan Respublikasının dövlət müstəqilliyi haqqında Konstitusiya Aktı" qəbul edilmişdir [2]. Bu Konstitusiya Aktı Azərbaycan Respublikasının dövlət müstəqilliyinin bərpasının hüquqi əsaslarını müəyyən etmiş və 1995-ci il Konstitusiyasının preambulasında Azərbaycan Respublikasının dövlət müstəqilliyinin bərpası ilə bağlı əsas prinsiplərin ifadəsində öz əksini tapmışdır.

**İstifadə edilmiş ədəbiyyat siyahısı:**

1. Azərbaycan Respublikasında insan hüquq və azadlıqlarının həyata keçirilməsinin tənzimlənməsi haqqında Azərbaycan Respublikasının Konstitusiya Qanunu // 24 dekabr 2002-ci ildə qəbul edilmişdir: [Elektron resurs] / https://e-qanun.az/framework/1881

2. Azərbaycan Respublikasının dövlət müstəqilliyi haqqında Konstitusiya Aktı // 18 oktyabr 1991-ci ildə qəbul edilmişdir: [Elektron resurs] / https://e-qanun.az/framework/6693

3. Azərbaycan Respublikasının iqtisadi müstəqilliyinin əsasları haqqında Azərbaycan Respublikasının Konstitusiya Qanunu // 25 may 1991-ci ildə qəbul edilmişdir: [Elektron resurs] / https://e-qanun.az/framework/6506

4. Azərbaycan Respublikasının İnsan hüquqları üzrə müvəkkili (ombudsman) haqqında Azərbaycan Respublikasının Konstitusiya Qanunu // 28 dekabr 2001-ci ildə qəbul edilmişdir: [Elektron resurs] / https://e-qanun.az/framework/1407

5. Azərbaycan Respublikasının keçmiş Prezidentinin və onun ailə üzvlərinin təminatı haqqında Azərbaycan Respublikasının Konstitusiya Qanunu // 12 iyun 2011-ci ildə qəbul edilmişdir: [Elektron resurs] / https://e-qanun.az/framework/23763

6. Azərbaycan Respublikasının Konstitusiyası // 12 noyabr 1995-ci ildə qəbul edilmişdir (24 avqust 2002-ci il, 18 mart 2009-cu il və 26 sentyabr 2016-cı il tarixdə olan dəyişiklik və əlavələr): [Elektron resurs] / https://e-qanun.az/framework/897

7. Azərbaycan Respublikasının Milli Məclisinin Azərbaycan Respublikasının Nazirlər Kabinetinə etimad məsələsinin həll edilməsi hüququnun əlavə təminatları haqqında Azərbaycan Respublikasının Konstitusiya Qanunu // 24 dekabr 2002-ci ildə qəbul edilmişdir: [Elektron resurs] / https://e-qanun.az/framework/1882

8. Beynəlxalq cinayətlərə görə məsuliyyət müəyyən edən qanunun qüvvəsinin geriyə şamil olunması haqqında" Azərbaycan Respublikasının Konstitusiya Qanunu // 12 may 2006-cı ildə qəbul edilmişdir: [Elektron resurs] / https://e-qanun.az/framework/11669

9. Məlikova M.F. Hüquq nəzəriyyəsi: Dərslik. – Bakı: Elm və təhsil, – 2019, – 448 s.

10. Normativ hüquqi aktlar haqqında Azərbaycan Respublikasının Konstitusiya Qanunu // 21 dekabr 2010-cu ildə qəbul edilmişdir: [Elektron resurs] / https://e-qanun.az/framework/21300

11. Barber, N.W. (2021). The United Kingdom Constitution: An Introduction. Oxford University Press. Chapter 5, pp. 56–92; constitutional statutes discussion: pp. 74–82.

12. Popova S., Yanik A. The Russian Constitution of 1993 and the Constitutionalization of Federal Legislation: Data Analysis // BRICS Law Journal. 2019, Vol. 6. № 3, pp. 128-161. https://doi.org/10.21684/2412-2343-2019-6-3-128-161

13. Гамидова, А.Ф. Конституционные законы в правовой системе Азербайджанской Республики // Евразийский юридический журнал. 2021. № 12. - с. 130-131.

**Надиров Эльчин Захид оглу,**
ООО “ASNAF S.Ş.”, советник генерального директора
по правовым вопросам

## КОНСТИТУЦИОННЫЙ ЗАКОН: ПОНЯТИЕ, ОБУСЛОВЛЕННОСТЬ ВОЗНИКНОВЕНИЯ И ИСТОРИЯ РАЗВИТИЯ

### РЕЗЮМЕ

В юридической науке и законодательной практике необходимо четко разграничивать две категории — конституционное право и конституционный закон, которые, несмотря на терминологическое сходство, различаются по своей правовой природе, функциям и нормативному характеру. Конституционное право, представляющее собой совокупность правовых норм, регулирующих общественные отношения, связанные с организацией и осуществлением государственной власти, основными правами и свободами человека и гражданина, а также правовым статусом фундаментальных институтов государства, одновременно является самостоятельной отраслью права и одним из основных направлений юридической науки. Конституционный закон, в свою очередь, представляет собой особый вид нормативного правового акта, который в правовых системах отдельных государств принимается на основании прямого указания конституции либо вытекающих из нее требований и регулирует конкретные общественные отношения, имеющие конституционное значение.

**Nadirov Elchin Zahid,**
ASNAF S.Ş. LLC, Legal Counsel to the General Director

## CONSTITUTIONAL STATUTE: CONCEPT, RATIONALE FOR ITS EMERGENCE, AND HISTORY OF DEVELOPMENT

### SUMMARY

In legal scholarship and legislative practice, it is necessary to clearly distinguish between two categories—constitutional law and constitutional statute—which, although terminologically similar, differ in their legal nature, functions, and normative character. Constitutional law, as a body of legal norms regulating social relations concerning the organization and exercise of state power, the fundamental rights and freedoms of individuals and citizens, as well as the legal status of the fundamental institutions of the state, constitutes both an independent branch of law and one of the principal areas of legal scholarship. A constitutional statute, in turn, denotes a special type of normative legal act within the legal systems of individual states, adopted pursuant to an express constitutional provision or requirements arising from the constitution and regulating specific social relations of constitutional significance.

**Redaksiyaya daxilolma tarixi: 20.09.2026**
**Təkrar işlənməyə göndərilmə tarixi: 25.09.2026**
**Çapa qəbul olunma tarixi: 26.09.2026**